# Əfqanıstan veteranları Azərbaycan dövlətinin əsgərləridirlər





1979-1989-cu illər Əfqanıstan müharibəsinin nəinki bu ölkəyə, habelə keçmiş SSRİ-yə və bu məkanda yaşamış müxtəlif millətlərə, bəşəriyyətə vurduğu yaralar hələ də sağalmamış, yaddaşlardan silinməmişdir. İllər keçsə də, bu ölüm-dirim müharibəsi unudulmayacaq. Keçmiş SSRİ-nin elə bir ucqar məkanı olmamışdır ki, bu vahiməli və dəhşətli müharibənin acılarını dadmasın, ailələrə ölüm və göz yaşları gətirməsin. O dövrdə vətən anlayışı milliyyətindən, dilindən, yaşadığı yerdən asılı olmayaraq ittifaqda yaşayan hər bir insan üçün əziz və müqəddəs idi. Bu mənada keçmiş SSRİ azərbaycanlılar üçün də vətən sayılırdı.

On il davam etmiş Əfqanıstan müharibəsində 7500 azərbaycanlı döyüşmüşdür. Onlardan 208-i həlak olmuş, 7 nəfəri isə itkin düşmüşdür.

Hazırda Azərbaycanda 5 minə yaxın Əfqanıstan müharibəsi veteranı var. Xatırladaq ki, Əfqanıstandan qayıdandan sonra bir çoxları Qarabağda gedən döyüşlərdə şəhid olmuş və ya sonradan dünyasını dəyişmişdir. Onlardan 17 nəfəri Milli Qəhrəman adına layiq görülmüşdür.

Redaksiyamıza gələrək artıq tarixə çevrilmiş bu dəhşətli olaylardan danışan, bizə maraqlı döyüş xatirələrindən söz açan Əfqanıstan müharibəsinin iştirakçıları Əli Babayev və Nadir Ələkbərov onu da qeyd etdilər ki, 1993-cü il noyabrın 2-də ümummilli lider Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət edərək Azərbaycan Respublikasının bütün vətəndaşlarını həmrəyliyə, birliyə dəvət edən vaxt Əfqanıstan döyüşçülərinin 4500 nəfəri vətənimizə, torpağımıza olan sevgisini bir daha nümayiş etdirərək təcrübəli keçmiş doyüşçü kimi ulu öndərin çağırışına kütləvi şəkildə səs verdi. Qarabağda yadelli erməni işğalçılarından torpaqlarımızın azad olunması üçün onlar Azərbaycanın Milli Ordusunda ilk xüsusi təyinatlı döyüş batalyonu təşkil edərək döyüşə atıldılar. Döyüşlərdə 76 nəfər şəhid, 45 nəfər əlil olmuş, 6 nəfər isə itkin düşmüşdür. Əfqanıstan döyüşçülərindən Qarabağda torpaqlarımızın azad olunması uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə 7 nəfər Milli Qəhrəman adına layiq görülmüş, 37 nəfər "Azərbaycan Bayrağı" ordeni, əksəriyyəti isə orden və medallarla təltif olunmuşdur.

Əli Qurban oğlu Babayev 1960-cı ildə Şəmkir rayonunda anadan olmuşdur. Orta məktəbi 1978-ci ildə bitirdikdən sonra 1979-cu ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılmışdır. 1979-1981-ci illərdə Əfqanıstan müharibəsində iştirak etmişdir. Müharibədə yaralandıqdan sonra bir neçə ay hərbi hospitalda yatmışdır. Əfqanıstanda göstərdiyi şücaətə görə Rusiya Federasiyası Müdafiə Nazirliyinin medalı ilə təltif olunmuşdur. Ə.Babayev Qarabağ müharibəsi başlayanda da buna biganəlik göstərməmiş, 1 il 3 ay gedən gərgin döyüşlərdə iştirak etmişdir. Hazırda ikinci qrup Əfqanıstan müharibəsi veteranıdır. 20 ildən artıqdır ki, Yeni Azərbaycan Partiyasının üzvüdür. Əfqanıstan Müharibəsi Veteranlar Cəmiyyətinin Binəqədi rayonu üzrə sədr müavini, seçki komissiyasının üzvüdür. Ağsaqqallar Şurasında da təmsil olunur.

Əli müəllim bizimlə söhbət zamanı bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında vətənpərvər oğullarımız ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarını azad etmək, düşmənə layiqli cavab vermək əzmindədirlər: "Torpaqlarının 20 faizi işğal altında olan bu ölkənin fəhləsi də, ziyalısı da hər zaman düşmənə qarşı vuruşmağa hazır olmalıdır. Vətənini canından artıq sevən oğullarımız Ali Baş Komandanın əmri ilə silaha sarılıb igid və cəsur əsgərlərimizlə birlikdə torpaqlarımızın azad edilməsi uğrunda döyüşməyə hazırdırlar. Bu, bizim üçün olduqca şərəflidir".

Əli Babayev ulu öndər Heydər Əliyevin siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyevin Əfqanıstan müharibəsi iştirakçılarına münasibətindən də söz açdı: "Ümummilli lider Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Əfqanıstan müharibəsi veteranlarına hərtərəfli qayğı göstərir. Onların mənzil, avtomobillə təminatı, sosial qayğılarının həlli, eləcə də təqaüdlərinin artırılması istiqamətində dövlət tərəfindən bütün tədbirlər görülür. Yaşadığımız Binəqədi rayonunda müharibə veteranlarının həyat şəraiti, problemləri diqqət mərkəzindədir. Bu yaxınlarda mənə də avtomobil verildi. Fürsətdən istifadə edib bütün veteranlar adından bizə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirirəm". Qeyd edək ki, Əli müəllim həm də idman azarkeşidir. Tarixdə ilk dəfə Bakıda keçirilmiş Avropa Oyunlarını yaxından izləmiş veteran, digər tamaşaçılar kimi, idman yarışlarından böyük zövq almışdır. Onun dediyinə görə, zallarda müharibə veteranları və əlil insanlar üçün hər cür şərait yaradılmışdı. Əfqanıstan müharibəsi veteranları idman arenalarımızda qaliblərlə görüşmüş, daim azərbaycanlı və əcnəbi idmançılarla ünsiyyətdə olmuşlar. "Hər qələbədən sonra Azərbaycan himni səsləndikdə qürur hissi keçirirdik. Həmin həyəcanı indi də yaşayırıq. Olimpiya çempionlarımızla, o cümlədən məşhur paralimpiyaçı İlham Zəkiyevlə, digər mükafatçılarla, federasiya rəhbərləri ilə, məşqçilərlə görüşüb onlara dəstək verirdik. İlk Avropa Oyunları günləri qardaş Türkiyəni təmsil edən idmançılarla, habelə Rusiya Mədəniyyət Mərkəzində təşkil olunmuş tədbirdə Dövlət Dumasının sədri Sergey Narışkin, RF Milli Olimpiya Komitəsinin prezidenti Aleksey Jukov və digər rəsmi şəxslərlə ünsiyyətdə olduq. Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə keçirilən "Zəfər günləri"ndə də fəal iştirak edirdik", - deyə Əli Babayev bildirir.

Digər həmsöhbətimiz Nadir Qiyasəddin oğlu Ələkbərov 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1978-ci ildə 126 nömrəli orta məktəbi bitirmişdir. 1979-cu ildə hərbi xidmətə çağırılmış, keçmiş SSRİ ordusunun tərkibində Əfqanıstan müharibəsində iştirak etmişdir. 1982-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və oranı bitirmişdir. Azərbaycan EA-nın Fizika İnstitutunda çalışmışdır. YAP-ın üzvüdür. İctimai-siyasi işlərdə fəaldır.

Nadir müəllim də azarkeşlik etdiyi "Bakı-2015" ilk Avropa Oyunlarının onda doğurduğu xoş təəssüratları bizimlə bölüşdü: "Azərbaycan Prezidenti İlham Əliyevin idmana və idmançılara göstərdiyi qayğının nəticəsidir ki, təmsilçilərimiz dünya, Avropa çempionatlarında, olimpiya oyunlarında inamla çıxış edir, yüksək nəticələr qazanırlar. Bu ilin iyun ayında ilk Avropa Oyunlarına evsahibliyi edən Azərbaycanın tarixində yeni idman səhifəsi açıldı. Bu heç də hər ölkəyə nəsib olmur. Biz bütün yarışlara gedir və idmançılara dəstək olurduq. Yarışların təşkilindən, idmançılarımızın uğurlu çıxışlarından və bizə göstərilən diqqətdən çox razı qaldıq. Təmsilçilərimiz hər dəfə kürsüyə qalxanda, bayrağımız yüksəkdə dalğalananda və himnimiz səslənəndə özümü də həmin kürsüdə hiss edirdim. Azərbaycan Prezidenti İlham Əliyevin ailə üzvləri ilə birlikdə idmançılarımızı dəstəkləməsi onlara böyük stimul verirdi. Şükürlər olsun ki, ilk Avropa Oyunları gözəl şəraitdə, əmin-amanlıqla və möhtəşəmliklə keçdi. İdmançılarımız böyük əzmlə mübarizə apararaq Avropa idman tarixinə yeni səhifə yazdılar. Güclü Rusiya komandasından sonra ikinci olmaq bizim üçün böyük nəticədir. Bir sözlə, ilk Avropa Oyunlarını yüksək səviyyədə təşkil etməklə Azərbaycan nəyə qadir olduğunu bütün dünyaya sübut etdi.

Onu da qeyd edim ki, təmsil olunduğumuz birliyin əsas işi gənclərlə bağlıdır. Gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsini aşılamaq ən ümdə məsələlərdən biridir".

Veteranlar Binəqədi Rayon İcra Hakimiyyəti ilə birlikdə mütəmadi olaraq təlim-tərbiyə, hərbi-vətənpərvərlik və s. mövzularda, təhsil müəssisələrində, müxtəlif idarə və təşkilatlarda tədbir və görüşlərin keçirildiyini də qeyd etdilər və xüsusilə vurğuladılar ki, Əfqanıstan veteranları Azərbaycan dövlətinin daimi əsgərləridir.

Əfqanıstan müharibəsi veteranları tez-tez cəbhəyə yollanaraq əsgərlərimizin döyüş ruhunun, vətənpərvərlik hissinin yüksəldilməsində yardımçı olur, öz zəngin təcrübələrini bölüşürlər. Bu günlərdə bir qrup veteran Tovuz, Qazax, Gədəbəy, Ağdam, Tərtər, Goranboy bölgələrində səngərlərdə olmuşdur. Səfər çərçivəsində keçmiş beynəlmiləlçi döyüşçülər hərbi hissələrin şəxsi heyəti, eləcə də yerli əhali ilə görüşmüş, düşmənlə təmas xəttində xidməti şəraitlə tanış olmuş, gənc əsgərlərə müxtəlif hərbi peşələr üzrə dərslər keçmiş və əllərinə silah alaraq vətən müdafiəçiləri ilə birlikdə ön səngərdə gecə döyüş növbəsində durmuşlar. Dəfələrlə Ermənistan silahlı bölmələri tərəfindən atəşkəs rejiminin pozulduğunun şahidi olan vətənpərvər oğullar düşmənin susdurulmasında da yaxından iştirak etmişlər.

Əli Babayev və Nadir Ələkbərov bu gün də öz həyat tərzləri və ictimai-siyasi fəaliyyətləri ilə gənclərimiz üçün örnəkdir. Hər bir Azərbaycan vətəndaşı qəhrəmanlarını tanımalı, onların keçdikləri həyat yolunu öyrənməlidir. Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçən qəhrəmanlarımızla daim qürur duyuruq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***